VİLYAM ŞEKSPİR

OTELLO

Tərcüməçi:
Sabir Mustafa

QANUN NƏŞRİYYATI

WILLIAM SHAKESPEARE

OTHELLO

Venesiya sərkərdəsi Otello sevdiyi Dezdemonaya hədsiz məhəbbətlə bağlıdır. Lakin kinli Yaqonun hiyləsi nəticəsində Otello qadının sədaqətinə şübhə etməyə başlayır. Qısqanclıq hissi getdikcə Otellonun düşüncələrini zəbt edir və onu faciəli qərarlara doğru aparır...

"Otello" qısqanclıq, xəyanət və insan ehtiraslarının dağıdıcı gücünü əks etdirən faciədir. Əsərdə insan psixologiyası, etibar, xəyanət və mənəvi çöküş dərin bədii ustalıqla təsvir olunur.


Otello

İŞTİRAK EDƏNLƏR:

Venesiya hersoqu
Brabansio – senator
Başqa senatorlar
Qrasiano – Brabansionun qardaşı
Lodaviko – Brabansionun qohumu
Otello – Venesiyada xidmət edən mavr, adlı-sanlı sərkərdə
Kassio – Otellonun yaveri (müavini)
Yaqo – Otellonun mülazimi (məsləhətçisi)
Rodriqo – venesiyalı sadəlövh zadəgan
Montano – Kiprin Otellodan əvvəlki valisi
Təlxək
Dezdemona – Brabansionun qızı, Otellonun arvadı
Emiliya – Yaqonun arvadı
Bianka – Kassionun məşuqəsi

Dənizçilər, qasidlər, carçılar, məmurlar, zadəganlar,
çalğıçılar, xidmətçilər və keşikçilər
Birinci pərdə Venesiyada, qalanları isə Kiprdə vaqe olur.

BİRİNCİ PƏRDƏ

BİRİNCİ SƏHNƏ

Venesiyada bir küçə.

Rodriqo.
Of, Yaqo, danışma, yalan sözdür bu,
Bir şey ürəyimi sıxır, doğrusu:
Xəzinənin açarı əlində ikən
Bu işdən bir xəbər vermədin nədən?!

Yaqo.
Əgər giribsə də yuxuma bu iş,
Qoy məni bürüsün fəlakət, təşviş.

Rodriqo. Deyirdin ki, ona nifrətin vardır.

Yaqo.
Sözündən dönənlər yarımçıqlardır.
Alışır, odlanır, qovrulur sinəm,
Nifrətə layiqəm, nifrət etməsəm.
Hörmətli, izzətli üç ali nəfər
Söz verdilər: məni yavər seçsinlər.
And olsun vicdana, hər yerdə hərdəm.
Mən öz qiymətimi yaxşı bilirəm.
Ah... Fəqət o məğrur, o çirkin ərəb
Gətirdi ortaya başqa bir səbəb.
Təklifi, təkidi tamam rədd etdi,
Zəhmətim, əməyim havayı getdi.
Dedi ki, seçmişəm öz yavərimi,

İndi görməkdədir o, işlərimi.
Gör seçdiyi kimdir? Böyük hesabdar,
Maykl Kassio da, nə demək olar!
Şeytantək çox sevir şux qadınları,
Boş nəzəriyyədir dövləti, varı.
Döyüş haqqında da, nə gizlədim mən,
Artıq dərk etməyir qızdan, gəlindən.
Nə təcrübəsi var, nə də tədbiri,
Gör, hara seçildi sarsağın biri.
Ancaq mən döyüşdə yaşa dolmuşam,
Rodosda, Kiprdə azmı olmuşam?!
Düşmənlər əlimdən batıbdır yasa,
Yanmaram hesaba düzgün baxılsa.
O özü yaxşıca görübdür bunu,
Öyrənib Yaqonun kim olduğunu.
Gəlib, yavər olur indi bir uşaq,
Mən isə mülazim[1], sən işə bir bax.

Rodriqo.
Allaha and olsun, atıb bu adı,
Olardım mən onun yalnız cəlladı.

Yaqo.
Nə üçün bu dərdin yoxdur dərmanı?
Bu mənsəb bəlası tutub hər yanı.
Çatır ada, sana bu gün hər axmaq,
Bir adamın varsa, adamsan ancaq.
Hərbdə yüksəliş başqaydı əzəl,
Xidmət eyləmək də gözəldi, gözəl.
Rütbə alınardı şücaət ilə,

[1] Hərbi rütbə

Daha verilməzdi məsləhət ilə.
İndi özün düşün, bir əlac varmı?
O qara ərəbi sevmək olarmı?

Rodriqo. Xidmət eyləməzdim ona bir daha.

Yaqo.
Bir az, səbirli ol, inan sabaha.
Qədimdən belədir: tələsiyənlər
Xeyirdən daha çox qazanar zərər.
Bir də ki, hamıdan ağa olmayır,
Hər nökər ağaya sadiq qalmayır.
Sonra biləcəksən: vardır çoxları –
Atır insanlığı, adı, vüqarı,
Qul olur, işləyir zillət çəkərək,
Qazancın nə olur? Bir qarın yemək.
Qocalan kimi də işdən atılır,
Yazıq nə alınır, nə də satılır.
Bəzisi də var ki, girir min dona,
Etibar edirlər hər yerdə ona.
Dolanır mülayim, gəzir səmimi
Arzuya, niyyətə çatana kimi.
İşləyir, çalışır, yaxşı ad alır,
Ağanın gözündə qalxır, ucalır.
Bir sözlə, möhkəmcə tutur özünü.
Mən belə adamam, deyim düzünü.
İnan adın kimi buna, Rodriqo,
Qoy mən ərəb olum, olmayım Yaqo.
Mən özümə xidmət edirəm, inan,
Göylər hakimimdir mənim hər zaman.
Qəlbimdə gizlənən niyyətim vardır,

O mənə güc verən bir ilk bahardır.
Nə məhəbbət üçün, nə də iş üçün
Onun qulluğunda durmaram bir gün.
Məqsədim aydındır, budur məsələ,
Sən əsl Yaqonu görmürsən hələ.

Rodriqo.
Əgər dəvədodaq bar dərsə qızdan,
Səadət gölündə üzəcək, inan.

Yaqo.
Qocanı çağırıb tezcənə oyat,
Şirin yuxusuna kəskin zəhər qat.
Sən elə çağır ki, hamı eşitsin,
Boğsun dostlarını qəzəb, hiddət, kin.
Çirkinin gözəlsə orda sabahı,
Yeminə milçək sal, qaçsın iştahı.
İyrənc, qotur sözlər qisməti olsun,
Sevinci dağılsın, kefi pozulsun.

Rodriqo.
Qocanın evidir, görürsən, budur.
Ucadan çağırım, necə doğrudur?

Yaqo.
Çağır iniltiylə, acı fəryadla,
Qulağı, ürəyi dağlayıb odla.
Sən elə çağır ki, dəhşətli, çılğın,
Elə bil, şəhəri bürüyüb yanğın.